Səh. 2 Şərəf sözünün birinci hecası – Azər Musaoğlu

Səh. 3 Ailə dəyərlərimiz – Hacı Bəkiroğlu

Səh. 5 Silinəsi adətlərimiz; ağı anası dirilər – Esmira Ələkbərli

Səh. 6 Şah və mat: “Bir oyun, bir həyat” – Aytən Fətullayeva

Səh. 3 And içdiyimiz dəyərlər – Afiq Muxtaroğlu

Səh. 4 3223 ŞAGİRD TƏHSİLİNİ DAYANDIRIB, 8041 ŞAGİRDİN STATUSU DAYANDIRILIB

Səh. 7 Ağa Məhəmməd şah Qacarın Tiflis şəhərinə hücumu – Aleksandre Orbeliani



İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 DEKABR 2024-CÜ İL № 21 (216)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.


## GÜRCÜSTANIN YENİ PREZİDENTİ MİXAİL KAVELAŞVİLİDİR



Gürcüstanın altıncı prezidenti Mixail Kavelaşvili seçilib. O, 300 seçicidən 224 səs toplayıb. Bu barədə Gürcüstan Mərkəzi Seçki Komissiyası məlumat yayıb.

Məlumatda bildirilir ki, səsvermə yerli vaxtla dekabrın 14-də saat 09:00-dan 14:00-dək keçirilib. Seçkilərdə Seçki Kollegiyasının 225 üzvü iştirak edib, bir bülleten etibarsız hesab olunub.

Qeyd edək ki, M.Kavelaşvili Gürcüstan prezidenti vəzifəsinə yeganə namizəd idi. Onun namizədliyi hakim “Gürcü Arzusu – Demokratik Gürcüstan” Partiyası tərəfindən irəli sürülüb.

M.Kavelaşvilinin andiçmə mərasimi dekabrın 29-da keçiriləcək.

Mixail Kavelaşvili 22 iyul, 1971-ci ildə Bolnisi rayonunda doğulub. 1989-cu ildə Tbilisi Dövlət Universitetinin iqtisadiyyat fakültəsinə daxil olsa da, təhsilini başa vurmayıb.

O, uşaqlıqdan futbola maraq göstərib və hücumçu mövqeyində çıxış edib. Peşakar karyerasına Tbilisinin “Lokomotiv” komandasında başlayıb. 1988-1995-ci illərdə Tbilisinin “Dinamo”sunun tərkibində bir neçə dəfə ölkə çempionu olub.

1991-2002-ci illərdə Gürcüstanın milli yığmasında 46 oyun keçirib.

1995-ci ildə Vladiqafqazın “Spartak-Alaniya” komandasına keçib və onun tərkibində Rusiya çempionu olub. Elə həmin il Rusiya çempionatının 33 ən yaxşı futbolçusundan biri seçilib.

Daha sonra “Mançester Siti”də və İsveçrənin bir sıra klublarında oynayıb. 2006-cı ildə oyunçu karyerasını başa vuraraq, məşqçiliyə başlayıb.

2016 və 2020-ci illərdə “Gürcü Arzusu” partiyasından parlamentə seçilib. 2022-ci ildə iki deputat – Sozar Subari və Dimitri Xundadze ilə birlikdə partiyadan çıxıblar. Yazdıqları açıq məktubda səbəb kimi ABŞ-ın ölkədə siyasi mühiti gərginləşdirməsini və süni inqilab ovqatı yaratmaq cəhdini göstəriblər. Daha sonra bir qrup deputatla birlikdə “Xalqın Gücü” adlı ictimai birlik yaradıblar.

2024-cü ildə “Xalqın Gücü” partiyaya çevrilib. Mixail Kavelaşvilinin siyasi katibi olduğu partiya “Gürcü Arzusu” ilə alyans yaradıb. Onun üzvləri Avropa İttifaqı və NATO ilə inteqrasiyanı dəstəkləsələr də, gürcü xalqının ənənəvi dəyərlərini müdafiə edərək, antiqərb ritorikası yürüdürlər.

2024-cü ilin oktyabrında Mixail Kavelaşvili yenidən “Gürcü Arzusu” partiyasından deputat seçilib. Noyabrın 27-də isə partiyanın sədri Bidzina İvanişvili onun Gürcüstan prezidentliyinə namizədliyini irəli sürüb.

Mixail Kavelaşvili həm də teleaparıcı və futbol ekspertidir.

Evlidir, dörd övladı var.

## ANKARADA TÜRKİYƏ, AZƏRBAYCAN VƏ GÜRCÜSTAN PARLAMENTİNİN XARİCİ ƏLAQƏLƏR KOMİTƏLƏRİ RƏHBƏRLƏRİNİN GÖRÜŞÜ KEÇİRİLİB



Dekabrın 3-də Ankarada Türkiyə, Azərbaycan və Gürcüstan parlamentlərinin xarici əlaqələr komitələri rəhbərlərinin üçtərəfli görüşü keçirilib.

İclasda Türkiyə Böyük Millət Məclisinin Beynəlxalq əlaqələr Komissiyasının sədri Fuat Oktay, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov və Gürcüstan parlamentinin Xarici əlaqələr komissiyasının sədri Nikoloz Samxaradze iştirak ediblər.

Görüşdə Fuat Oktay qeyd edib ki, müzakirələrin gündəliyinə ikitərəfli münasibətlər və regional proseslər, eləcə də birgə layihələrin həyata keçirilməsi mövzuları daxildir.

***“Biz davam edən birgə layihələri başa çatdırmağa çalışırıq və əməkdaşlığın yeni yollarını müəyyənləşdirməyə hazırıq”,*** – deyə Türkiyə parlament komissiyasının rəhbəri bildirib.

Görüş mətbuata qapalı rejimdə davam edib.

## PARLAMENTDƏ MÜXALİFƏT BLOKU YARADILIB




Gürcüstanın “Xalqın Gücü” Partiyası parlament çoxluğunu tərk edərək hakim partiyaya müxalif olub. Bu barədə jurnalistlərə “Xalqın Gücü” Partiyasının deputatı Quram Maçaraşvili məlumat verib.

Onun sözlərinə görə, partiya bu qərarı ona görə verib ki, ölkədə praktiki olaraq sağlam müxalifət yoxdur. Gürcüstanda yalnız “xaricdən maliyyələşən müxalifət adlanan radikal müxalifət” var. Ona görə də məqsəd müxalifət partiyası olaraq ölkədə mövcud problemlərin həlli istiqamətində qətiyyətli addımlar atmaqdır.

Qeyd edək ki, parlament “Xalqın Gücü” partiyasının təşəbbüsünü dəstəkləyib və reqlamentə dəyişiklikləri tez bir zamanda təsdiqləyib.



# ŞƏRƏF SÖZÜNÜN BİRİNCİ HECASI

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Deyir, şər deməsən xeyir gəlməz. Biz də şər deyək, bəlkə xeyir gəldi...

Dünyanın düz vaxtından əliəyri adamın əyri yol çəkdiyi günə qədər insanın şəriki olan şər heç də həmişə həppi endlə bitən Hollivud filmlərindəki kimi xeyirə məğlub olmur, virus kimi tez yayılır, çoxalır, imperiyaya çevrilir – şər imperiyasına, harada ki, xeyiri aşkara çağırmırlar, xeyiri güdürlər...

İki canavar haqqındakı pritçanı yəqin ki, bilirsiniz. Burada tirajlayım ki, bilməyənlər də oxusunlar. Bəlkə kiməsə xeyiri dəydi.

*Deməli, günlərin bir günü qoca öz nəvəsinə deyir:*

*– Hər bir insanın daxilində iki canavarın mübarizəsinə bənzər mübarizə gedir. Canavarlardan biri paxıllıq, qısqanclıq, peşmanlıq, təkəbbür, lovğalıq və yalanı təmsil edir. Digər canavar isə sülh, məhəbbət, ümid, həqiqət, xeyirxahlıq və sədaqəti təmsil edir.*

*Babasının sözlərindən təsirlənən nəvə bir anlıq fikrə gedir, babasından soruşur:*

*– Bəs sonda hansı canavar qalib gəlir?*

*Qoca gülümsəyərək cavab verir:*

*– Sonda həmişə yemlədiyin canavar qalib gəlir.*

Şərin yer üzündən kökünü kəsmək üçün, yəqin ki, hər kəs öz daxilindəki paxıllığı, qısqanclığı, təkəbbürü, lovğalığı, yalanı, kini, hərisliyi öldürməlidir, bu canavarı ac saxlamalıdır ki, gəbərsin. Təkcə bununla iş bitmir həm də. Pis canavarı öldürüb, yaxşı canavarı da yiyəsiz it kimi küçələrə buraxıb, ac saxlamaq da olmaz. Gərək sülhü, məhəbbəti, ümidi, həqiqəti, xeyirxahlığı, sədaqəti, mərhəməti təmsil edən canavarı da yaxşı yedirdəsən, yaxşı bəsləyəsən ki, o da quduzlaşmaya. Qabilin Habilə əl qaldırması ilə öldürmək feilinin yarandığı gündən son dəfə istifadə olunacağı günə qədər mövcud olan və olacaq şərin kökünü yer üzündən kəsmək haqqında danışmaq inandırıcı görünməsə də, nikbin olmaq istəyirəm. Ümid sonda ölür yəni.

Gecənin xeyirindənsə gündüzün şərini seçə-seçə şərə öyrəşdik. İçimizdəki şər canavarını özümüz yemləməsək də məktəblərdə yemləməyə başladılar. Tarix səhifələrində düşmənlərimizi əzbərlədik, insanların necə birgə yaşayaraq yaratdıqlarını yox, necə bir-biri ilə savaşaraq dağıtdıqlarını öyrəndik. Hesabı insanları milliyətinə, inancına, dərisinin rənginə, dilinə görə bölmək üçün, çıxmaq üçün öyrəndik. İkinci xarici dil olaraq nifrət dilini öyrəndik və cəmiyyət içində bir-birimizlə bu dildə danışdıq. Bütün bunları ali məktəbdə daha geniş, daha dərin öyrənməyə başladıq...

İçimizdəki şər canavarını özümüz yemləməsək də küçələrdə, çayxanalarda, toyxanalarda, mağazalarda, apteklərdə, xəstəxanalarda, dövlət idarələrində, siyasi partiyalarda yemlədilər. Canavar yal yeməsə də yala öyrətdilər canavarlarımızı. Yala hürən it yalan oldu, yala uladı canavarlarımız. Bir qarın yal üçün şər-şəbədə qoşaraq ona-buna şər atmağa başladıq. Şərəf sözündə birinci hecanı qoruduq...

Sonra "insan insanın canavarıdır" deyib öz şər əməllərimizə haqq qazandıraraq bir-birimizi daha çox didib-parçaladıq, bir-birimizin uğuruna, xoşbəxtliyinə, sağlamlığına, evinə, maşınına, uşaqlarına, işinə, eşinə paxıllandıq, qısqandıq, yalan danışdıq, lovğalandıq, oğurladıq, alçaltdıq, təhqir etdik, öldürdük... Beləliklə də içimizdəki şər canavarını daha çox yemlədik, bəslədik, bordadıq, özümüz canavara çevrildik...

Bəs siz daxilinizdəki hansı canavarı daha çox yemləyirsiniz?..

# QARDABANİ – İZOLYASİYA OLUNMUŞ ƏRAZİ



"Qeyri-izolyasiya olunmuş mədəniyyətlərin qarşılıqlı əlaqəsi təkcə ideyaların mübadiləsi ilə deyil, həm də insan təcrübələrinin müxtəlifliyini və zənginliyini artırmaqla nəticələnir" *(Jared Diamond, "Silahlar, Mikrob və Polad").*

Jared Diamond bu kitabında müxtəlif mədəniyyətlərin qarşılıqlı təsirinin və onların inkişafına təsir edən amillərin təhlilini təqdim edir. İzolyasiya olunmamış mədəniyyətlər arasında əlaqə inkişafın təkanını verə bilər və fərqli mədəniyyətlərin müxtəlif aspektlərini bir-birinə yaxınlaşdırır. Lakin dönüb Qardabaniyə baxsaq, onun izolyasiya mövzusundan nə qədər uzaq qaldığını, insanların öz arzu və istəkləri ilə ona biganə yanaşdığını görərik. Texnologiyanın inkişafından irəli gələrək qloballaşmanın yayğın olduğu və demək olar ki bütün ölkələrin və həmin ölkələrin sərhədləri daxilindəki ərazilərin bir-birinə həm siyasi-iqtisadi, həm də sosial-mədəni təsir etdiyi bir dövrdə Qardabani nə təsirə məruz qalır, nə də harasa təsir göstərir. Təbii ki, burada müsbət təsiri nəzərdə tuturam, hansı ki, Diamondun da qeyd etdiyi kimi, inkişafın təkanını verir. Amma təəssüf ki, sakinlərinin əlli faizindən çoxunun öz ölkəsində baş verən hadisələrdən, bu hadisələrin səbəbindən və mahiyyətindən bixəbər olduğu bu "şəhər" statusuna sahib olan ərazidə nə inkişafın "i"-sini, nə də təkanın "t"-sını görə bilmirik. Bunun səbəbkarı ölkənin digər bölgələrindən təcrid olunmuş kimi yaşayan bizlərik, çünki bu hadisələr bizim üçün maraqlı deyil.

Məsələn, Baş nazir İrakli Kobaxidzenin Gürcüstanın Avrointeqrasiya prosesinin 2028-ci ilə qədər dayandırılması haqqındakı bəyanatından sonra günlərdir Tbilisidə keçirilən etiraz aksiyaları haqqında 10 Qardabani sakinindən soruşsaydıq, yəqin ki, söhbətin nədən getdiyini bilənlərin sayının bilməyənlərdən təxminən iki dəfə az olduğunu təsəvvür etmək çətin olmazdı. İş orasındadır ki, insanlar bu barədə hadisələrin baş verdiyi günlərin sayının 10-a yaxınlaşdığı günlərdə xəbər tuturlar. Hadisələrdən agah olandan sonra isə içimizdə, dərinliklərdə yatan dırnaqarası siyasətçilər oyanırlar və məsələləri şüurumuzun çatdığı yerə qədər təhlil etməyə başlayırıq. Bununla da öz "missiyamızı" başa çatdırırıq. Çünki bu ərazidə etiraz etmək, mitinq keçirmək kimi hallar "qadağandır", biz ona pis baxırıq. Amma dönüb Marneuliyə baxanda oranın sakinlərinin etiraz edərək səslərinin çıxdığını görürük. Bir neçə gün öncə orada keçirilən dırnaqarası aksiyada iştirak edənlərin sayı az da olsa, heç olmasa buna cəhd göstərənlər olmuşdur. Ümumiyyətlə, orada yaşayanlar "etiraz" sözünün əsl mənasını həm sözdə, həm özdə nümayiş etməyi çox yaxşı bacarırlar. Amma burada elə deyil.

Binəli İslamoğlunun dediyi kimi, biz hələ öz problemlərimizlə bağlı meriyaya gedib şikayət etməyi bacarmırıq, qaldı ki, etiraz aksiyası keçirmək, heç olmasa ona cəhd etmək. Onsuz da biz demirik ki, hər gün aksiya, mitinq keçirək. Belə baxanda hamı sakit və rahat həyat tərzi keçirmək, stabil siyasət istəyər. Amma bu o demək deyil ki, həyatımızı elə az aşım, ağrımaz başım deyib keçirməliyik. Ölkəmizdə baş verən hadisələrlə maraqlanmaq, yeri gələndə bələdiyyəyə şikayət dalınca getmək, haqqımızı tələb etmək, yeri gələndə sosial-siyasi həyatda aktivlik göstərmək lazımdır. Daha belə izolyasiya olunmaq yox, canlanmaq lazımdır. Bunun üçün isə mədəniyyətin zənginləşməsi, insanların sosiallaşması lazımdır. Burada isə mədəniyyət və sosiallaşmaq üçün ən əlverişli yerlər ya dönərxanadır, ya çayxana, ya da gözəllik salonu.

Sözdə Mədəniyyət Evimiz, muzeyimiz və Azərbaycan tərəfindən maliyyələşdirilən kursumuz da mövcuddur, amma orada hamı öz maddi qazancını güdür. Geridə qalır tək parlaq ulduzumuz "Beez" Uşaq Teatrı, hansı ki, öz varlığı ilə boz rəngə oxşayan bu şəhərə rəng qatır, sözün əsl mənasında mədəniyyət sözünü dirçəldir. Lakin qardabanililərin çoxunun heç onun varlığından da xəbəri yoxdur. Niyə? – Çünki maraqlanmırlar. Elə bu maraqlanmamağın ucbatından xaricdə yaşayan bir şəxsin ailəsinə geri qayıtmağı ilə bağlı teleqram göndərib özünün həmin teleqramdan əvvəl gəlməsi hadisəsi kimi, 2024-cü ildə Gürcüstanda yaşanan hadisələr başa çatıb hər şey qaydasına düşəndən sonra qardabanililərin bundan xəbər tutması hadisəsi bir-birinə oxşayır. Birinci halda bu inkişafın geriliyindən, ikincidə isə insan şüur və dünyagörüşünün geriliyindən irəli gəlir.

**Çiyalə OSMANOVA**
*Tbilisi Dövlət Universitetinin sosial və siyasi elmlər fakültəsinin 1-ci kurs tələbəsi*

# AND İÇDİYİMİZ DƏYƏRLƏR

*(Tarixi-etnoqrafik qeydlər. II yazı)*



Tarixi inkişafın gedişində mənəvi dəyərlərin, o cümlədən də andların dəyişməsi barədə artıq bilirik. Cəmiyyətin, xalqın andlarında baş verən dəyişikliklər ailə andlarında da özünü büruzə verir. Biz bu yazıda ailədaxili andlar barədə düşüncələrimizi diqqətinizə çatdırmaq fikrindəyik.

Hər bir ailənin həm ümumi, yəni xalqın, cəmiyyətin qutlu-müqəddəs saydığı dəyərlərə and içməsiylə, həm də sırf həmin ailəyə məxsus andlara müraciət etməsiylə rastlaşa bilərik.

Ailə andlarının sayı məhdud görünsə də, özünəməxsusluğu ilə, fərdiliyi ilə ümumi olanlardan kəskin şəkildə fərqlənir. Ailə andları adlandırdığımız bu mətnlər lakonikliyi ilə də diqqəti cəlb edir. Ailənin hər fərdinin tez-tez eyni bir nəsnəyə and içməsi, eyni bir şəxsin adını and predmetinə çevirməsi başqaları üçün, ailəyə yad olanlar üçün yeknəsəq təsir bağışlaya bilər. Lakin bəhs olunan ailə üzvləri üçün həmin and müqəddəs bir dəyər olmaqla yanaşı, həm də kimsənin ona həqarət etməyə cəsarət edə bilməyəcəyi toxunulmazlıqdır.

Ailənin anda çevirdiyi şəxs və ya onun adı həmin ailənin tutiyəsi sayılır. Sözarası onu da qeyd edək ki, əski insanlar ad və onun daşıyıcısı arasında bərabərlik işarəsi qoyaraq, adla ad sahibini eyniləşdirirdilər. İnsanın adına və ya özünə həqarət edilməsi əski dünyagörüşdə eyni mənanı ifadə edirdi. Adı yalandan dilə gətirmək, yerli-yersiz ona and içmək bağışlanılmaz günah hesab olunurdu və bu gün də belədir.

Ailə kimi və ya kimin adını müqəddəs hesab edir, and predimetinə çevirirdi?

Hələ əski çağlardan qədim türk xalqları ruhun ölməzliyinə inanır, ata-baba ruhlarının qoruyucu-himayəçi gücünün varlığına şübhə etmirdilər. Əcdadların ruhlarına sitayiş, onların əziz tutulması türk inancları arasında ən yayğın ünsürlərdən sayılırdı.

Əski inanclarımızda ruhların ailəni ziyarət etməsinə inanılırdı. Həftənin müəyyən bir günündə, daha dəqiq desək, cümə axşamı və ya başqa adıyla adna axşamı ruhların doğmalarına baş çəkmək üçün gəldiyinə, onların cümə günü və ya adna günü geri qayıtmasına inanılmışdır. Ata-baba ruhlarına hörmət əlaməti olaraq, onların adlarına qazan asılmasına, ailə üzvlərinin bir-biri ilə gülərüz münasibət qurmasına diqqət yetirilir, hər bir ailə üzvünün doğmalarının ruhlarını xoş sifətlə qarşılaması qayğısına qalınırdı. Ailədən incik düşmüş ruhların küsəcəklərini, ailəyə bədbəxtliklər gətirəcəklərini düşünmüş və hər vasitə ilə bundan qaçmağa çalışmışlar.

Soyun-nəslin banisinin, yəni ulu əcdadın adı ailə andları arasında ən öndə duran adlardan idi. Ulu əcdadın adının anda çevrilməsini şərtləndirən səbəblərdən biri də ulu babanın, elə ulu nənənin də adının zaman keçdikcə yenilənməsi, soyda yeni doğulanlardan birinə verilərək yaşadılması idi. Bəzən bir nəsildə eyni adı daşıyanların sayı belə unudulurdu. Həmin adı daşıyan sonuncu şəxsin sayca neçənci olmasını müəyyən etmək çətinliyi yaranırdı. Ulu əcdadın adını anda çevirərkən bəzən cəm halında işlədilirdi. Bu, həm ulu əcdadın, həm də onun adını daşıyanların cəmi kimi başa düşülürdü. Bəzən and içən öz babasının, atasının və ya qardaşının adını anda çevirərkən, qarşısındakını inandırmaq üçün onun doğmalarından eyni ad daşıyan olardısa, həmin ada da cəm şəkilçisi əlavə etməyi unutmurdu.

Müəyyən səbəbdən dünyadan vaxtsız, nakam köçənlərin adı da ailənin and yerinə çevrilə bilirdi. Müharibədən, uzaq səfərdən qayıtmayanların, itkin düşənlərin adları da and içilənlər arasında ilk sıralarda yer alırdı.

Ailənin sonradan dünyaya gələn üzvləri həmin şəxslərin adlarının uzun müddət and kimi istifadə olunmasında xüsusi rol oynayırdılar. Nakam köçmüş, itkin düşmüş əzizlərinin adını yana-yana, tez-tez dilə gətirən böyükləri müşahidə edən ailənin kiçikyaşlı üzvləri ilk and dərslərini bu cür alırdılar. Böyüklərin dilindən düşməyən ada sehrli bir varlıq kimi baxaraq, adın daşıyıcısının üzünü görməsələr də, o adın ailə üçün müqəddəs olduğuna inanır, onu dillərinin əzbərinə çevirirdilər. Həmin ad nəsildən nəslə bu yolla ötürülür, uzun müddət yaşamaq hüququ qazanırdı.

Müharibələrdən, sürgünlərdən, müxtəlif qəzalardan sonra gənc yaşlarında bu dünyadan köç edənlərin sayı o qədər çoxalırdı ki, az qala hər ailə and içmək üçün belə bir şəxsə malik olurdu. Bu cür təbii, siyasi kataklizmlərdən sonra "İtkinlərimizin çöllərdə qalan canı haqqı", "Qardaşımın həsrət başına and olsun", "Əmimin/dayımın itkin canı üçün" və bu kimi nə qədər andların işlədilmə intensivliyi daha da qabarırdı.

Müharibələr, yolxucu xəstəliklər, qan davaları nəticəsində itki verən, faciə yaşayan ailənin və ya soyun andlarının yenilənməsi, and predmetlərinin dəyişməsi də baş verirdi. Bu hadisələrdən sonra ailənin-soyun əski andlarının sıralarına yeniləri də əlavə olunur, zaman keçdikcə ailə üzvlərinin dilinin əzbərinə çevrilərək, müqəddəslik statusu qazanırdı.

Əski insanlar əziz bildikləri, müqəddəs saydıqları nəsnələrin, şəxslərin adını yalandan çəkməyin, onları anda çevirməyin bədbəxtliklər gətirəcəyinə inanmış, yerli-yersiz and içməyi qəbul etməmişlər. Onların düşüncəsinə görə, "andın iki başı var" ki, and içənə də, and içdirənə də sədəmə toxundura bilər. Müqəddəs-qutlu hesab edilən nəsnəyə və ya şəxsin adına yalandan and içilməsinin and içənə "qənim olacağına" inanaraq, belə hərəkətdən çəkinmişlər.

Tarixi-etnoqrafik qeydlərimizi heç vaxt yalandan and içməyə məcbur qalmayacağınız ümidiylə nöqtələyirik.

***Afiq MUXTAROĞLU***

# AİLƏ DƏYƏRLƏRİMİZ



**Hacı Bəkiroğlu**

hacihaciyev@hotmail.com

Ailə hər zaman cəmiyyətin təməl daşı hesab edilib. Lakin müasir dövrdə sosial, iqtisadi və mədəni dəyişikliklər ailə strukturuna və dəyərlərinə əhəmiyyətli şəkildə təsir etməkdədir. Bu proses islamın ailə ilə bağlı fundamental prinsipləri ilə müqayisə olunduqda maraqlı nəticələr ortaya çıxır.

Bugünkü dünyada fərdiyyətçiliyin artması, texnologiyanın cəmiyyətə təsiri və gender rollarının dəyişməsi ailə modelində bir çox dəyişikliklərə səbəb olur. Ənənəvi dəyərlərdən uzaqlaşma, boşanmaların artması, birgəyaşayışın (evlənmədən birlikdə yaşamaq) artması və valideyn-uşaq münasibətlərində məsuliyyətin azalması bu dəyişikliyin əsas göstəricilərindəndir.

İslami nöqteyi-nəzərdən baxsaq, ailə yalnız sosial bir qurum deyil, həm də mənəvi bir birlikdir. Quranda və hədislərdə ailənin qurulması, qorunması və idarə olunması barədə konkret prinsiplər var. İslam dinində ailə müqəddəs sayılır. Çünki evlilik Allahın buyurduğu bir müqavilə (nikah) kimi qəbul edilir. İslam ailə birliyini qorumağı və inkişaf etdirməyi hər zaman əmr edir. Valideynlərə hörmət və qayğı, uşaqların düzgün tərbiyəsi ilə bağlı vəzifələr Quranda dəfələrlə vurğulanır. İslam dini boşanmanı (talaq) icazəli, lakin ən sevilməyən hallar arasında göstərir. Boşanmadan öncə tərəflərin barışdırılması üçün səylər tövsiyə olunur.

Ailədə kişi və qadının roluna gəldikdə isə, ailə başçısı olaraq kişinin iqtisadi təminatı üzərinə götürməsi, qadının isə mənəvi dəyərləri qorumaq və ailəni dəstəkləmək rolu vardır. Lakin bu, qadının yalnız evə bağlı olması demək deyil, islam qadının təhsil almasını və iş dünyasında iştirakını da dəstəkləyir.

Müasir dövrdə gender bərabərliyi anlayışı ailədə konfliktlərə səbəb olmaqdadır. İslamda isə kişi və qadın bərabər hüquqlara malikdir, lakin onların ailədə müxtəlif, ancaq bir-birini tamamlayan rolları var.

Əgər günümüzün əsas problem qaynağı olan maddi çətinliklərdən söz açası olsaq bu hal çox vaxt ailələrin dağılmasına səbəb olur. İslam ailənin maddi yükünü yalnız fərdi məsuliyyət kimi deyil, həm də cəmiyyətin kollektiv vəzifəsi kimi görür (zəkat, sədəqə və digər yardımlaşma prinsipləri).

Ailə dəyərlərinin dəyişməsi müasir cəmiyyətin reallığı olsa da, islamın təqdim etdiyi ailə modeli bu prosesin mənfi təsirlərinə qarşı güclü bir alternativdir. İslam ailənin əsaslarını qorumağı yalnız fərdi məsuliyyət kimi deyil, cəmiyyətin rifahı üçün vacib bir şərt olaraq təqdim edir. Beləliklə, islamın ailə anlayışı müasir cəmiyyətin problemlərinə həm mənəvi, həm də praktik həllər təqdim edə bilər.

# 3223 ŞAGİRD TƏHSİLİNİ DAYANDIRIB, 8041 ŞAGİRDİN STATUSU DAYANDIRILIB

2023-2024-cü tədris ilinin göstəricilərinə əsasən, 3223 şagird təhsilini dayandırıb, 8041 şagirdin isə statusu dayandırılıb.

Milli Statistika Xidmətinin yaydığı məlumata görə, statusun və təhsilin dayandırılması ilə bağlı göstərici qızlara nisbətən oğlanlarda daha yüksəkdir. Ötən tədris ilində 3585 qız, 4456 oğlanın şagird statusu dayandırılıb; 1117 qız, 2016 oğlan isə təhsilini dayandırıb.

***Ümumtəhsil haqqında qanunla müəyyən edilmiş statusun dayandırılma səbəbini qeyd edirik:***

1. Məktəb ibtidai, baza və orta pillədə təhsil alan şagirdin statusunu dayandırmağa məcburdur:

*a) Şagird 90 tədris günü ərzində məktəbə gəlmir və qiymət almırsa;*

*b) Şagird xaricə gedir və şagirdin valideyni/qanuni nümayəndəsi məktəbə yazılı müraciət edirsə;*

*c) 12 illik təhsildən sonra şagird milli tədris planı ilə tətbiq edilmiş səviyyəni aşa bilmirsə;*

*ç) Azyaşlı şagirdin valideyni/qanuni nümayəndəsi və ya yetkinlik yaşına çatmış şagird statusun dayandırılması ilə bağlı məktəbə ərizə ilə müraciət edərsə.*

2. Bu maddənin birinci bəndi ilə nəzərdə tutulmuş hər hansı əsasla şagirdin statusunun dayandırılması halında, məktəb direktoru şagirdin statusunun dayandırılması ilə əlaqədar fərdi-inzibati hüquqi akt verməlidir.

3. Məktəb şagirdin statusunun dayandırılması barədə qərarı 2 iş günü ərzində şagirdin valideyninə/qanuni nümayəndəsinə bildirməlidir. Həmin maddənin 2-ci bəndi ilə nəzərdə tutulmuş protokol və şagirdin statusunun dayandırılması barədə ümumtəhsil müəssisəsinin idarəsi üzrə məlumat sistemində məlumat yerləşdirməlidir;

4. Şagirdin statusunun dayandırılması zamanı yazılı müraciət əsasında şagirdin şəxsi işində olan doğum şəhadətnaməsinin orijinalı şagirdin valideyninə/qanuni nümayəndəsinə verilir. Şəxsi işdə isə şagirdin doğum şəhadətnaməsinin notariusla təsdiq edilmiş surəti qalır.

# XÜSUSİ TƏCRÜBƏÇİ MÜƏLLİMLƏR ÜÇÜN İMTAHANIN VAXTI UZADILIB

Təhsil, Elm və Gənclər Komitəsi "Ümumtəhsil haqqında" qanunda dəyişiklik edilməsini dəstəkləyib. Dəyişiklik xüsusi təcrübəçi müəllimlərə 2026-cı ilin 1 yanvarına qədər imtahan vermək imkanı verəcək.

Qeyd edək ki, indiyə qədər xüsusi təcrübəçi müəllimlərə 2025-ci ilin 1 yanvarına kimi vaxt verilmişdi. Ancaq təhsil nazirinin müavini Tamar Maxaraşvilinin qeyd etdiyinə görə, kadr çatışmazlığı təhlükəsi qarşısında qalmamaq üçün vaxtı daha 1 il uzatmağa ehtiyac yaranıb.

Nazir müavininin sözlərinə görə, bugünkü vəziyyətdə təhsil sistemində 530-a yaxın xüsusi təcrübəçi müəllim işləyir. Onlar qanunvericiliklə müəyyən edilmiş müvafiq imtahanı verməyiblər. İmtahanı vermək üçün vaxtın 1 il müddətinə uzadılması isə xüsusilə dağlıq və ucqar kəndlərin ictima məktəblərində kadr çatışmazlığının yaranmaması üçün əhəmiyyət kəsb edir.

# GÜRCÜSTANDA 1713 UŞAQ BAĞÇASI FƏALİYYƏT GÖSTƏRİR

Gürcüstanda 2024-2025-ci tədris ilinin başlanğıcında 1713 məktəbəqədər təhsil müəssisəsi qeydə alınıb. Həmin müəssisələrdə 18347 pedaqoq/tərbiyəçi/tərbiyəçinin köməkçisi/inklüziv təhsil üzrə xüsusi müəllim işlə təmin olunub. Uşaq bağçalarında məktəbəqədər təhsil alan uşaqların ümumi sayı 137474 nəfərdir. Uşaq bağçalarının sayına gəldikdə isə İmereti liderlik edir. İmeretidə 305 uşaq bağçası fəaliyyət göstərir. Müəllim və uşaq sayına görə isə Tbilisi öndədir. Paytaxtda 51461 uşaq və 6375 pedaqoq/tərbiyəçi/tərbiyəçinin köməkçisi/inklüziv təhsil üzrə xüsusi müəllim işlə təmin olunub. Tbilisidə 190 dövlət bağçası fəaliyyət göstərir.

# MÜƏLLİMLƏRİN SAYI ARTIB

Gürcüstanın özəl və ictimai məktəblərində işləyən müəllimlərin sayı artıb. Bu barədə Gürcüstan Statistika Xidməti məlumat yayıb. Statistik göstəricilər 2024-2025-ci tədris ilinə aiddir.

"2024-2025-ci tədris ilinin başlanğıcında Gürcüstanın ümumtəhsil müəssisələrində 66,0 min müəllim işləyirdi. Bu, ötən ilin analoji dövrü ilə müqayisədə 3,7 % çoxdur", – deyə məlumatda qeyd edilib.

Qurumun verdiyi məlumata görə, müəllimlərin böyük əksəriyyətini qadınlar təşkil edir. Qadın müəllimlər 87,5 faiz, kişi müəllimlər isə 12,5 faiz təşkil edir.

*Aşağıda verilmiş diaqramda 2020/2021-2024/2025-ci tədris illərində müəllimlərin sayı verilmişdir:*




# 2024-CÜ İLDƏ 41,7 MİN ŞAGİRD ORTA MƏKTƏBİ BİTİRİB

2024-cü ildə orta məktəbi 41,7 min şagird bitirib. Bu, ötən ilin müvafiq göstəricilərindən 11,8 % azdır.

Bu barədə Gürcüstan Statistika Xidməti məlumat yayıb. Xidmət dekabr ayında 2024/2025-ci tədris ilinə olan ümumtəhsil müəssisələrinin göstəricilərini yayımlayıb.

Bundan əlavə, Statistika Xidmətinin məlumatına görə, 56,0 min şagird ibtidai təhsil alıb. Bu ötən ilin müvafiq göstəricisindən 1,1 % azdır. 46,7 min şagird isə baza təhsili alıb, ötən ilin göstəriciləri ilə müqayisədə bu, 0,1 faiz azdır.

*Aşağıda verilmiş diaqramda 2020-2024-cü illərdə ibtidai, baza və orta təhsil almış şagirdlərin sayı göstərilib:*




# GÜRCÜSTANDA ƏN ÇOX MƏKTƏB İMERETİ BÖLGƏSİNDƏDİR

Dekabrın 2-də Gürcüstan Milli Statistika Xidməti 2024-2025-ci tədris ilinin ümumtəhsil müəssisələrinin göstəricilərini yayımlayıb. Göstəricilərə görə, Gürcüstanda 2 məktəb azalıb.

"2024-2025-ci tədris ilinin başlanğıcında Gürcüstanda 2294 ümumtəhsil müəssisəsi (məktəb) fəaliyyət göstərib, buradan 2086-sı ictimai məktəb, 208-i isə özəl məktəbdir. Ötən tədris ili ilə müqayisədə ölkədə mövcud olan məktəblərin sayında 2 azalma olub. Regionlara əsasən ən çox məktəb (17,1 %) İmeretidə qeydə alınıb", – Statistika Xidmətinin məlumatında yazılıb.

*Aşağıda verilmiş diaqramda 2020/2021-2024/2025-ci tədris ilinin başlanğıcında ümumtəhsil müəssisələrinin sayı göstərilib:*




***Səhifədəki məlumatlar "edu.aris.ge" və "etaloni.ge" saytlarından götürülüb.***

***Gürcü dilindən tərcümə etdi: Aynurə ƏLİYEVA***



# SİLİNƏSİ ADƏTLƏRİMİZ; AĞI ANASI DİRİLƏR

Deyirlər yaxşı adam dar gündə tanınar. Bu fikir də mənim qəbul etmədiyim atalar sözlərindəndir. Mənim yaxşı günümdə olmayan kəs pis günümdə nəyimə lazım?! Deməli, o göz yaşımı görməyə gəlir. Mənim necə yandığıma tamaşaya gəlir. Mən bunun şahidi kimi yazıram...

Mən çalışıram həmişə adamların yaxşı günlərinə şahid olam, yanında olam. Pis hadisələr baş verəndə özü danışmasa soruşmaram. Əlbəttə, bu, biganəlik əlaməti deyil, sadəcə onun yarasının qaysağını qoparmaq istəmirəm. Məlhəm olmayacamsa, niyə qanadım!

Ərkim çatan yas yerlərinə isə getməyə, təbii ki, məcburam. Adətlərimizin bəzi ifratları xoşuma gəlməsə də qatlanıram. Son şahid olduqlarım isə məni necə məyus etdisə, dərdimi qələmə danışım dedim...

Nənəm danışardı ki, qayınanası Xədicə nənə vəsiyyət edibmiş: bax, olmaya-olmaya mənə başdaşı qoyasınız, müsəlmanın qəbri itməlidir. Arxamca da vay-şivən salmayın. Torpaqdan yaranan torpağa qayıtmalıdır. Xərcə düşüb ehsan-zad da verməyin, uzaqdan gələnlərə halva, çay verərsiniz.

Maraqla soruşmuşdum ki, dediyi kimi etdinizmi? – "Yox", demişdi, – adımız, sanımız vardı, baban iki cöngə kəsdi, yeddi para kənd gəlmişdi, ehsansız ölümü götürmək olardı. Hələ başdaşı da qoydurdu, zamanaya görə sanballısını.

Mən kitablardan oxumuşdum ki, vəsiyyəti yerinə yetirməmək ədalətsizlikdən başqa da bir günahdır. İbadətkar axund qızına qarşı bu xatanı həmişə içimdə bir qırıqlıq kimi saxlayıram. Doğmalarımızı qəbiristanlığa ziyarətə gedəndə Xədicə nənənin hələ də itməyən 60 illik qocalmış məzar daşına babamın əvəzinə xəcalətlə baxıram...

Yaxşı münasibətimiz olan bir ailənin övladı qəza nəticəsində həlak olmuşdur. Nənəm demiş, "ələsət ayağı" idi. Kimsənin qapısını bəd xəbər döyməsin. Mən ora iki dəfə getdim. Nalə çəkən ananın fəryadı torpağı diksindirirdi. Bu dərdin böyüklüyü bir yana, ailəyə yaxın kişilər – əmi-dayı əl-ayağa düşmüşdülər – cöngə axtaran, bazarlığa gedən, kirayə qab-qaçıq gətirdən...

Başqalarını bilmirəm, mən xəcalət çəkirdim ki, doğmalar öz doğmalarının rahat oturub dərdini çəkə bilmirdilər. Bilmirdilər faciələrini yaşasınlar, yoxsa sabah yasa gələcək adamların yeyəcəyi ehsan məclisinin hazırlığına nəzarət etsinlər...

Mərhumu ata ocağından götürdülər, doğmalardan bir qismi dəfn üçün qəbiristanlığa getdi, digər qismi yasa gələnləri ehsan süfrəsinə dəvət etdi. Mərhum heç qəbiristanlığa çatmamış bəzən min nəfərə çatan pörtdəmə qazanları ehsan yeyənlərə paylandı. Təsəvvür edirsinizmi, ana, bacı göz yaşında qovrulur, dünyası başına uçub, biz buğlanan pörtdəməni yeyib, üstündən də qoğallı samovar çayı içib, süfrəyə nəzarət edən, masalar arasında narahat fırlanan qohumların yanından keçib, başsağlığı verib qayıdırıq.

Dərd sahibi bilmir dərdini çəkə, ya çəkdiyi xərcin yükünü. Hələ bu harasıdır, bunun üçü, yeddisi, qırxı, cümələri, qara bayramları... Axı maddi güc hamıda eyni olmur. Adət var deyə borclara qatlanan nə qədər dul qadınlar, atalar, analar saymaq olar...

Mənim tanıdığım ədalət sahibi olan Allahımız heç vaxt bu rəzaləti buyurmayıb və götürməz. Əsla!!!

Az-çox kitablar oxumuşam, bir az müsəlman ölkələrindən məlumatım var, mən belə qanunları yalnız bizdə bilirəm. Axund qızı olan Xədicə nənə deyərmiş ki, müsəlman qəbri itməlidir. Vay-şivən salmadan Allahın verdiyi taleyi alın yazısı kimi danəndə qəbul etmək lazımdır. Belə baş verən ailəyə yaxınlar yemək bişirib gətirər ki, gözü yaşlıdır, onun ocaq qalayacaq taqəti olmaz. Ona mənən dayaq olarmışlar. Ehsan olaraq qonşu, qohum halva çalarmış. Xatirəsi xoş mərhumların adına bəzən el, bəzən də doğmaları bulaq çəkdirər, körpü saldırar, künbəz tikdirərmişlər.

Bax, budur bizim dinimizin aliliyi. İslamı terror deyə gözdən salanlara cavab üçün bu ibrət adətlərimiz varkən israfçılıq və ac nəfislik lazımmı?!

Kəndimizdən Narzan adlı bir oğlan Rusiyada özü üçün iş qurubmuş. Bir neçə il öncə anası rəhmətə gedib. Gəlib sakit şəkildə anasını öz doğmaları ilə aparıb dəfn edib. Kənar adamlara gedə bilərsiniz, gəldiyinizə görə təşəkkür edirəm deyibmiş.Yadımdadır ki, Narzanın etdiyi bu hərəkətə görə onu çox qınadılar, hətta sorağı Bakıyla bir oldu. Bütün ellilərimiz onu qınadı, bəziləri xristianlaşıb dedi, bəziləri vahabi dedi... Bilirsiniz o ana dəfn olunan şaxtalı qışdan sonra nə oldu?

Yaz sonu Narzan kəndə gəldi. Kəndin qəbiristanlığa gedən torpaq yolu bərbad vəziyyətdə idi. Yük maşınları o yolu qarda, palçıqda çətinliklə gedirdi. Onda inşaat rayonlarda belə inkişaf etməmişdir. O, gedib asfalt zavodu ilə danışıb, zamanına görə çox böyük məbləğlə kənddən xeyli aralı qəbiristanlığa müasir yol çəkdirdi. Sonra kəndin ortalığına gəlib cammata deyib ki, bu, mənim anama ehsan borcumdur.

O vaxtdan illər keçib, Narzan kəndə heç gəlməyib, amma bütün Ağməmmədli kəndi o yoldan keçərkən anaya rəhmət, oğula sağlıq arzu edir.

Dilimizdə "əzizinin ehsanı olsun" ifadəsi var. Dinimizin müsbət adətlərindən olan bu deyimə niyə əməl etməyək?! Onsuz da ürəyi parçalanan yas sahibi olmazmı öz doğmaları ilə rahat ölüsünü "urvatlaya". Kənar adamlar tədricən gedib başsağlığı verib qayıda. Onsuz da "gözdən yaş çıxarmı ürək yanmasa". Hamımız da bilirik ki, yasa gedənlərin əksəriyyəti "gəlib, getməliyəm" devizi ilə gedir. Hər nənənin, babanın adına bir ağac əkilsə, bir bulaq çəkilsə, hər nakam bir gəncin adı bir xeyriyyədə anılsa onlardan əbədi xatirə yaşayar, doğmaları maddi ziyana düşməz.

Adətləri insanlar özləri yaratdığı kimi, özləri də dəyişə bilər. Yəqin hər kəndin də öz Narzanları var...

**Esmira ƏLƏKBƏRLİ**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# GƏNC MÜƏLLİMLƏRİMİZİ TANIYAQ – ƏHMƏDALI BABAŞOV



Kvemo-Kartli bölgəsinin ən böyük kəndidir Faxralı (Talaveri) kəndi. Dağlarla əhatə olunmuş kənd füsunkar bir bölgədə yerləşir. Kənd əsrlərdən gələn zəngin keçmişi, tarixi və mədəniyyəti olan böyük türk elidir. Faxralı həm əhatə etdiyi coğrafiyasına, həm də milli yaddaşımızda tutduğu yerinə görə fərqlənən bir bölgəsidir Vətənimizin. Ulu keçmişi, tarixi, mədəniyyəti olan kənd Bolnisi bələdiyyəsinin kəndlərindən özünəməxsusluğu ilə həmişə fərqlənmişdir. Faxralı şairlər, aşıqlar, alimlər, əməksevər insanlar, qəhrəmanlar, milli ənənələrə sadiq, zəngin keçmişini unutmayan, milli yaddaşımıza adını qızıl hərflərlə yazmış insanların vətənidir. Kənd mövcud olduğu son yüzillik tarixində yetişdirdiyi ziyalıların sayı ilə qürur duyacaq qədər yüksəklikdədir.

Mən bu yazımda gənc bir müəllimdən bəhs etmək istəyirəm. Bu gənc müəllim Əhmədalı Babaşovdur. Babaşovlar kimi böyük bir soyun nümayəndəsidir. O, 31 mart 1988-ci ildə Faxralı kəndində anadan olub. İlk təhsilini doğma kəndində yerləşən orta məktəbdə alan Əhmədalı müəllim, ali təhsilini Azərbaycan Respublikasında davam etdirmişdir. O, 2006-cı ildə Azərbaycan dövlətinin nüfuzlu universitetlərindən olan Xəzər Universitetində maliyyə-kredit ixtisası üzrə təhsil alıb. Təhsilini ingilis dilində alan Əhmədalı müəllim 2010-cı ildə universiteti müvəffəqiyyətlə başa vurmuşdur. Vətəni Gürcüstana, doğma kəndinə qayıdan gənc müəllimimiz müxtəlif sahələrdə çalışıb. 2018-ci ildə Gürcüstan Texniki Universitetində riyaziyyat üzrə magistr təhsili alıb. 2019-cu ildən Faxralı kəndində yerləşən 2 nömrəli məktəbdə riyaziyyat fənnini tədris edir. 2019-cu ildə müəllimlər üçün nəzərdə tutulmuş sertifikasiya imtahanından ən yüksək nəticə əldə edərək onu sevən insanlara və şagirdlərinə qürur və sevinc hissi yaşadıb. Həmişə öz inkişafı istiqamətində çalışan Əhmədalı müəllim 2020-2021-ci illərdə Gürcüstanın Avropa Universitetində 60 kreditlik pedaqoji proqram üzrə təhsil alıb.

Əhmədalı Babaşov bir peşəkar, savadlı və məsuliyyətli müəllim kimi qonşu İmirhəsən (Savaneti) kəndində yerləşən tam orta məktəbdə də riyaziyyat müəllimi kimi çalışır. O, yaxın dönəmdə doğma Faxralı kəndində təhsil mərkəzinin əsasını qoyub. Qeyd etmək istəyirəm ki, hər il olduğu kimi, bu il də Əhmədalı müəllimin şagirdləri yüksək nəticələrlə Gürcüstanın nüfuzlu universitetlərinə qəbul oldular. Gənclərin Gürcüstan cəmiyyətinə inteqrasiyası, onların təhsil və intellektual inkişafı pedaqoji fəaliyyətinin əsas prioriteti olan Əhmədalı müəllimin əsasını qoyduğu təhsil mərkəzi işini məhz bu istiqamətdə qurub.

Müxtəlif fənlərin tədris olunduğu mərkəz gənclərin təhsil və inkişafına xidmət etmək məqsədilə yaradılıb. Təhsil mərkəzində riyaziyyat, məntiq, kimya, gürcü dili fənləri üzrə hazırlıq kursları fəaliyyət göstərir. Qeyd etmək istəyirəm ki, kimya fənninin tədrisi Bolnisi bələdiyyəsinin digər mərkəzlərində tətbiq olunmur. Düşünürəm ki, kimya fənninin tədrisi çox böyük uzaqgörənliklə atılmış addımdır. Mərkəz alternativ təhsil ocağı kimi fəaliyyət göstərir. Əsas prioriteti təhsil, maarifçilik, gənclərin cəmiyyətə düzgün və məqsədyönlü inteqrasiyası olan təhsil ocağı yerli əhali və gənclər tərəfindən dəstəklənir. Təhsil mərkəzində olan hazırlıq kursları tam ödənişsizdir ki, bu da aztəminatlı ailələr, eyni zamanda kənddən kənarda yerləşən başqa təhsil mərkəzlərindən faydalana bilməyən gənclər üçün çox əlverişlidir. Təhsil mərkəzində gürcü dili fənni tədris olunur. Gənclərin gürcü dilini mükəmməl səviyyədə öyrənmələri, dil baryeri ilə qarşılaşmamaları üçün təşkil olunmuş dil kursları uğurla fəaliyyət göstərir.

Əhmədalı müəllim gənclərin inkişafı istiqamətində öz biliyini, qayğısını əsirgəmir. Onun bir müəllim və vətəndaş kimi gördüyü



işlər, həyata keçirdiyi layihələr gənclərimizin inkişafı və təhsilinə yönəlib. Şagirdlərinə örnək olan müəllimimiz həmişə yorulmadan, böyük sevgi və qayğı ilə onlara dəstək olur, gələcəklərini qurmaq üçün onları düzgün və məqsədyönlü şəkildə yönləndirir.

Müəllim kimi çox çətin və şərəfli peşənin daşıyıcısı olan Əhmədalı bir müəllim və şəxsiyyət kimi doğma Faxralı kəndində və onun hüdudlarından kənarda böyük hörmət və sevgi qazanmış ziyalılarımızdandır. Əhmədalı Babaşova çətin və şərəfli işində uğurlar arzulayıram və ümidvaram ki, onun təhsil və inkişaf istiqamətində gördüyü işlər və layihələr həmişə onu sevənlərin qürur və sevinc mənbəyi olacaq.

**Leyla YUSİFOVA**
*Vətəndaş təhsili fənni üzrə müəllim*

# ŞAH VƏ MAT: "BİR OYUN, BİR HƏYAT"



*"Şahmatda ən çətin şey – səhvlərinizdən dərs almaqdır". "Şahmat yalnız rəqiblə deyil, həm də öz beyninizlə mübarizədir".*

Son illərin ən güclü şahmatçılarından biri olan Vişvanatan Anandın bu sitatlarını oxuduqdan sonra şahmat oynamağı qərara almışdım, amma şahmat taxtasının 8x8 ölçülü, 64 xanadan ibarət olduğunu, iki oyunçu arasında oynanıldığını və hər bir oyunçunun payına 16 fiqurun düşdüyündən başqa, demək olar ki, heç nə öyrəşə bilməmişəm. Daha sonra baxdığım bir müsabiqədə şahmat taxtasının üzərindəki fiqurların adını (8 piyada, 2 fil, 2 at, 2 qala, 1 vəzir və 1 şah) öyrənmişəm.

Oyunun analitik düşünmə qabiliyyətini artırdığını, problem həll etmə bacarığını gücləndirdiyini, yaddaşı və konsentrasiyanı yaxşılaşdırdığını, səbir və dözümlülük kimi keyfiyyətləri inkişaf etdirdiyini, bir sözlə, insanın intellektual inkişafına böyük təsiri olduğu elm adamları tərəfindən sübut edilmişdir. İstədim ki, oynamağı öyrəşim, bu qədər faydalı oyunun necə oynanıldığını mən də bilim, ancaq yaxın çevrəmdən kimdən soruşsam da, mənə bu oyunu öyrədəcək heç kəsi tapa bilmədim. Mən də düşündüm ki, ilk öncə araşdırım, daha sonra öyrənərəm. Beləliklə, başladım Stefan Sveyqin "Şahmat" kitabını oxumağa. Oxuyub bitirdikdən sonra əsəri öz beynimdə analiz edərkən şahmatın insan həyatı ilə əlaqəsini dərk etdim.

Şahmatın həyatla əlaqəsi dərin və mənalıdır. Bu qədim oyun, sən demə, sadəcə bir əyləncə və ya idman növü deyil, həm də həyatın prinsiplərini əks etdirən simvolik bir modeldir. Şahmat taxtasındakı gedişlər, seçimlər və strategiyalar, insanların gündəlik həyatda qarşılaşdığı çətinliklər və qərarlarla çox oxşardır.

Həyatda uğur qazanmaq üçün məqsədlər təyin etmək və onlara çatmaq üçün plan qurmaq lazımdır. Şahmatda da eyni prinsip keçərlidir, oyunçular hər bir gedişi diqqətlə planlaşdırmalı, qarşı tərəfin addımlarını əvvəlcədən düşünməlidir. Bu, həyatda da irəliləmək üçün düzgün strategiya qurmağın vacibliyini göstərir.

Şahmat səbir tələb edir. Bir anda qərar verib tələsik gediş etmək məğlubiyyətlə nəticələnə bilər. Həyat da buna bənzəyir, hər bir qərar yaxşıca düşünülməli, nəticələri əvvəlcədən təxmin edilməlidir. Tələsik qərarlar adətən mənfi nəticələrə səbəb olur.

Şahmatda bəzən qalib gəlmək üçün bəzi fiqurları qurban vermək lazımdır. Bu, həyatda da tez-tez qarşılaşdığımız bir həqiqətdir. Böyük məqsədlərə çatmaq üçün kiçik güzəştlərə getmək və ya müəyyən şeylərdən imtina etmək gərək ola bilər.

Həyat daim dəyişir və insan bu dəyişikliklərə uyğunlaşmalıdır. Şahmatda da oyunçular hər bir gedişdə mövcud vəziyyəti yenidən qiymətləndirir və strategiyasını uyğunlaşdırır. Bu bacarıq həyatda da mühüm əhəmiyyət daşıyır.

Şahmatda hər bir fiqurun özünəməxsus rolu və əhəmiyyəti var. Həyatda da hər bir insanın cəmiyyət üçün müəyyən bir rolu və dəyəri mövcuddur. Kiçik bir piyada belə şahmatda böyük təsir gücünə malik ola bilər, həyatda da hər kəsin öz töhfəsi vacibdir.

Şahmat oyunçusu yalnız cari vəziyyətə deyil, eyni zamanda gələcəkdə baş verə biləcək addımlara diqqət yetirir. Bu, həyatda da uğurlu olmaq üçün lazımlıdır. Uzaqgörən olmaq və uzunmüddətli təsirləri hesablamaq həyatda irəliləyiş üçün vacibdir.

Həyat kimi, şahmatda da hər zaman qələbə qazanmaq mümkün deyil. Məğlubiyyətlər oyunçunun zəif tərəflərini göstərir və gələcəkdə daha yaxşı olmaq üçün bir fürsət yaradır. Həyatda uğursuzluqlar da eyni şəkildə insanı gücləndirir və dəyərli təcrübə qazandırır.

Şahmat həyat kimidir. Hər fiqurun öz funksiyası vardır. Bəziləri zəifdir, bəziləri isə güclü. Bəziləri oyunun əvvəlində işinə yarayar, bəziləri sonunda. Amma qazanmaq üçün hamısından istifadə etməlisən. Eynilə həyatda olduğu kimi, şahmatda da hesab tutulmaz. On fiqurunu itirib yenə də oyunda qalib ola bilərsən.

İnsanın şahmatdan dərs alması həyatı daha yaxşı anlamağa və idarə etməyə kömək edir. Bu, özünüdərk, səbir, strategiya qurma və qərar qəbul etmə kimi bacarıqlarınızı inkişaf etdirməyinizə səbəb olur. Şahmat sadəcə oyun deyil o, həyatın bir modeli və həyat dərsləri üçün əvəzolunmaz bir mənbədir.

Qısacası, şahmat həyatın miniatür modelidir. Bu oyun bizə öyrədir ki, hər bir addım vacibdir, hər bir qərar nəticələr doğurur və uğur qazanmaq üçün səbir, planlama və iradə tələb olunur. Şahmat taxtasındakı hər gediş həyatın dərin dərslərindən biridir. Şahmat təkcə oyun deyil, həm də zəka, strateji düşüncə və həyat dərsləri ilə dolu bir dünyaya aparan yoldur.

Həyat da şahmat oyunu kimi, səhvlərimizdən dərs alaraq irəliləmək üçün bizə bir şans verir. Hər bir gedişin arxasında gizlənən hikmət bizə düzgün qərarların, səbirin və strategiyanın gücünü xatırladır. Unutmayaq ki, ən çətin döyüşlər belə ağılla, iradə ilə və yorulmadan irəliləməklə qazanılır. Şahmat taxtasında olduğu kimi, həyatda da hər birimiz öz oyunumuzu qururuq. Bu oyunda qalib gəlmək üçün ən vacib şey inadla və iradəylə mübarizə aparmaqdır.

**Aytən FƏTULLAYEVA**
*Tbilisi Dövlət Universitetinin dəqiq və təbiət elmləri fakültəsinin 2-ci kurs tələbəsi*

# ƏŞYALAR VƏ İNSANLAR



*"İnsanlar artıq özlərini danışaraq deyil, geyindikləri, aldıqları və yedikləri şeylərlə ifadə edirlər".* Harada qarşılaşdığımı xatırlamadığım bu cümlə haqqında fikir bildirmək istəyirəm.

Bu cümlə acı reallığı ifadə edir. Reallıq acı olur, bu fikirlə tam razıyam. Razı olmasam da halımızın acı olduğu gerçəyinin dəyişməyəcəyinin fərqindəyəm. Ona görə də razılaşmaqdan başqa nə çarə?

Amma xatırlatmaq istədiyim bir şey var. Bir çox yerdə eyni mənada istifadə olunsa belə, razılaşmaq və qəbullanmaq arasında çox böyük fərq var. Mən də bu reallıqla razılaşıram, amma əsla qəbullanmıram. Ona görə də dövrə uyğun şəkildə susub, oturmaq istəmirəm. Dahi şair M.Ə.Sabir demişkən:

*Derlər utan, heç kəsə bir söz demə, –*
*Həq sözü derkən utana bilmirəm!..*
***
*Derlər usan, hərvəzü hədyan demə, –*
*Güc gətirir dərd, usana bilmirəm!..*

Əgər susub otursam ilk cümlənin illər boyu dəyişməz olaraq qalacağının, doğruluğunu qoruyacağının açıq bir şəkildə fərqindəyəm. Zaman hər şeyin dərmanıdır deyirlər. Amma müdaxilə olunmayan xəstəyə zamanın ölüm gətirəcəyinin hər birimiz fərqindəyik. Biz də cəmiyyət olaraq həmin o yaralı xəstəyik və müdaxiləyə çox ehtiyacımız var. Həkimə getməmək səbəbimiz isə sağalmaq istəməmək deyil, sağalmaq prosesinin uzun, diqqət tələb edən, ağır bir iş olduğunu bilməkdir. Hə, bir də, biz adət-ənənəyə sadiq bir cəmiyyətik, ölüm döşəyinə düşməmiş həkim yolu tanımarıq.

Hə, qıraq heç kim yoxdur, gəlin ümumi dərdimizi açıb sizə də deyim. Bəlkə aranızda həkimlər var, nə bilmək olar.

Özümüzdən çox uzaqlaşmışıq. O qədər uzaqlaşmışıq ki, biri bizi sahib olduğumuz bahalı markalı avtomobilə görə tanıdıqda, trenddə olan geyimlə xatırladıqda qürurlanırıq. Halbuki əslində oturub saatlarla nə hallara düşmüşük deyə, bu xəstəliyi harada tapmışıq deyə düşünməliyik. Necə ola bilər ki, canlı-qanlı, düşünmə qabiliyyəti olan bir varlıq özü ilə yox, sahib olduğu əşyalarla xatırlana?..

Artıq iki qrupa bölünmüş haldayıq. Birinci qrupa hansısa platformada tanınmış insanlar, ikinci qrupa isə bu insanların etdiklərini sorğulamadan təkrarlayan insanlar (robotlar) aiddir. İkinci qrupa görə, birincilərin hərəkəti ən doğru, yediyi ən dadlı, geyindiyi ən dəbli, yaşadığı həyat ən ideal sayılır. Başlayırıq o "ideal" həyat üçün mübarizə aparmağa. Günlərlə, aylarla, hətta illərlə çalışırıq birinci qrupun sahib olduğu avtomobildən almağa və sonunda alırıq. Almaq yetərli olarmı bizə? – Xeyr, gərək aldığımızı da göstərək, bilsinlər ki, bizim də var. Göstəririk, çoxlu təbriklər alırıq, hətta qrup yoldaşlarımızın (ikinci qrupun) diqqətini çəkməyi də bacarırıq, diqqət mərkəzində olmağın verdiyi xoşbəxtlik bizi ağuşuna alır. Xoşbəxtliyimiz birinci qrupun bundan bezib başqa avtomobilə keçdiyi günə qədər davam edir...

Son dönəmdə həyatımız yuxarıda danışdığım hadisənin növlərinin dövri şəkildə təkrarlanmasından ibarətdir. Bax, bizi məhv edən də budur. Özümüzü tanıtmaq üçün bizimlə əlaqəsi olmayan şeylərdən istifadə edirik, sonra da bu dövrdə insanları yaxşı tanımaq olmur deyə ah-vay edirik. Yaxşı tanıyıram dediyimiz bəzi insanlar haqqındakı məlumatımız o adamın adı və sosial şəbəkədə yediyi yeməklərdən, içdiyi içkilərdən, sürdüyü avtomobildən, istifadə etdiyi hansısa bahalı bir əşyadan ibarətdir.

İndi sizə sualım: bundan öncəki cümlədə bir insanı həqiqətən ifadə edəcək nə var? – Təəssüf ki, heç nə. Amma yenə də insanlar bir-birini bu sayılanların vasitəsilə tanıdığını düşünür. Yolda qarşılaşsalar oturub on dəqiqə söhbət edə bilməyən insanlar sosial şəbəkədə saatlarla danışırlar. Bu gün hər hansı bir insana özün haqqında danış, özünü tanıt desək, çox azı bunu bacara bilər. Qalanları isə yenə özünü tanıtmaq üçün əşyalara, vəzifələrə baş vurar.

**Hürnisə ƏHMƏDOVA**
*Tbilisi Dövlət Universitetinin kimya fakültəsinin ikinci kurs tələbəsi*

# AĞA MƏHƏMMƏD ŞAH QACARIN TİFLİS ŞƏHƏRİNƏ HÜCUMU

ALEKSANDRE ORBELİANİ

*(əvvəli ötən sayda)*

**Ağa Məhəmməd şah Qacarın Tiflis şəhərinə hücumu**

**(1795-ci il sentyabrın 11-ci günü)**

Ağa Məhəmməd şah Qacar gələnə kimi, dörd, ya beş il bundan əvvəl çar İrakli iki minlik seçmə gürcü atlılar qoşunu ilə Kartliyə təşrif buyurmuşdu. Belə ki, həmin vaxtlar heç kim daha onun düşməni deyildi. İmeretini ləzgilərlə, Car-Balakən ilə birləşdirdi. Buna görə də onları çoxlu təqiblərlə haldan saldı və onların barışmasına çox cəhd etdi. Halbuki yenə ara-sıra gəlirdilər, lakin çox zəif. Osmanlını və qızılbaşları vecinə də almırdı. Məsələ öz qardaşları imeretililər və ləzgilər idi. Madam ki, onları birləşdirdi, Kartliyə doğru arvad-uşağı ilə şad-xürrəm təşrif buyururdu. Və mənim anam da orada öz ata-anasını, çar və çariçanı görüb.

Tiripona düzənliyinə çatanda və orada gözəl dəstəni gözləri ilə görəndə çar İrakli qürurla buyurdu: “On min qızılbaş və ya Osmanlı qoşunu qarşıma çıxsa gözlərini qırpmağa da qoymaram, tezcə məğlub edərəm”. Eyni zamanda dəstəyə düzülən əmrini verdi və hamısı nizama durdu. Çubuğa keçirilmiş papaq gətizdirdi. Çöldə hədəf olaraq qoydurdu. Bir tərəfə öz qohum-əqrəbasının olduğu yeri göstərtdi, özü onların yanında dayandı və seçmə süvarilərə əmr etdi: “Di, tüfənginizdən atəş açın və güllə ilə onu vurun, amma siz boşa keçirsəniz, ondan sonra növbə mənə çatacaq və mütləq onu vuracağam”. Hamı anladı ki, çarın özü güllə atmaq istəyir və bunun üçün ehtiyat etdilər, güllə atmayacağıq deyə düşündülər.

Papaqdan xeyli aralı bir daş hədəfi qoydular. Atlı ora çaparaq gedib oradan tüfəngdən atəş açmalı idi. Boşa keçsə idi, sıra ilə onun arxasınca gələn atəş açmalı idi. Lakin heç kim nişan ala bilməyəndə çara təklif etdilər.

Çar İrakli qocalmışdı, lakin nə gözünün nuru, nə eşitmə qabiliyyəti, nə ağlı, nə də nitq qabiliyyəti əskilmişdi. Halbuki gənclik enerjisi daha yox idi, lakin ləşkərlik və təqib etmə işinin öhdəsindən yaxşı gəlirdi, bundan az ağır iş görmürdü.

Seçmə süvarilərdən papağı heç kim vura bilməyəndə, çar səsləndi: “İndi növbə mənimdir. Onun yanına qızılvari qəşəng atını gətirdilər. Qocalmış və alçaqboy kişi yəhərin qulpundan yapışıb quş kimi atın belinə atıldı. Ayağını heç üzəngiyə də qoymadı. O bədöv atda çarı görsəydiniz deyərdiniz, otuz yaşında kişidir. Saqqalını da qara rəngə boyadanda onun qocalığı tamamilə hiss olunmurdu. Atı meydana çıxaranda



və özünü meydanda göstərəndə görən deyərdi: tabloya bənzəyir, əl ilə çəkilib. Ata sıçrayıb tamamilə qamətini düzəldəndə, məhz elə pərvazlanmış kimi hesab edərdin.

Təyin olunmuş yerə çatanda o, tüfəngini elə cəld işə saldı ki, hamı təəccübləndi. Bu zaman tüfəng işə düşdü və güllə papağın ortasını deşdi, hamı narahatlıqla dedi: “Günah deyilmi, sən Gürcüstandan əskik olasan”.

Bundan sonra atını döndərib hamıya məmnuniyyətlə dedi:

– Mən qoca hamınızı üstələdim.

O, Qori şəhərində oturub çarlıq işlərinə əncam çəkirdi. İşlərini idarə edirdi. O, şam yeməklərinin birində arvad-uşağının və yaxınlarının olduğu yerdə sevinclə dedi:

– Çətinliklə ləzgilər də bizə qoşuldular, indi də, Allahın köməyi ilə, ümid edirəm ki, bütün Gürcüstanın işini yaxşı aparacağam, ona görə də indi İmereti Kartli-Kaxetiyə birləşdi, onlar bir Gürcüstan çarlığı yaratdılar, bununla bu ölkə çox güclənəcək. İkincisi, bu Car-Balakən də elə ki qoşuldu və bundan sonra da bu gözəl doğma ölkəmiz xoşbəxtliyə doğru yönələcəkdir ki, bunlar üçün də hamımız Allaha şükür etməliyik.

Amma gürcülərin gizli düşmənləri bu əhvalatlardan, bu məmləkətlərin birləşməsindən xəbər tutanda dərhal Tanrıya qarşı çıxaraq Ağa Məhəmməd şah Qacarı Gürcüstana gətirirlər. Əgər əlimə fürsət düşsə, bunları kimlər etdi, şəksiz, onların əməli barəsində ətraflı təsvir edəcəyəm.

Qori şəhərində bunu niyyət edirdi: “İndi Gürcüstanın işini yaxşı aparacağam”. İrandan xəbər gəldi: Ağa Məhəmməd şah Qacar böyük qoşunla Gürcüstanın üzərinə gəlmək niyyətindədir.

Əvvəla, İrakliyə xoş gəlmədi və dedi: “Nə edim, Gürcüstanın işini necə qurum, buna nə zaman vaxt tapım? – Bu qədər müddətdə qan tökmək mənim taleyimə bəs eləmədimi ki, indi yenə qanın içində üzməliyəm. Aman Allah, nə xəbərdir mənim gürcülərimin başında bu qədər dəhşətlər, necə bizi bağışlamazsan?”

Nəhayət, götür-qoydan sonra: “Madam ki, olmadı, hücum etsinlər. Gəlsin o xacə Ağa Məhəmməd şah Qacar. Elə bir iş açacağam başlarına ki, onlardan bir nəfər də Gürcüstandan çıxa bilməsin”.

Qoridə o qədər də qalmadı. O, Tiflis şəhərinə gəldi, hazırlıqlara başladı – Ağa Məhəmməd şah Qacarı necə qarşılasın.

Əvvəla, bunu demək lazımdır ki, Ağa Məhəmməd şah Qacar Gürcüstanın üzərinə niyə yeriyirdi? – Şəxsən Ağa Məhəmməd şah Qacar çar İrakli ilə dostluq edirdi və həmişə çar İrakliyə yaxınlaşmağa cəhd edirdi, lakin İraklinin Rusiya ilə dostluq etdiyini eşidəndə çox incidi və bununla, sən demə, İraklinin əleyhdarları rahat durmadılar: Get Gürcüstanın üzərinə və çar İraklini cəzalandır (Gəncə xanı Ağa Məhəmməd şah Qacara namələr yazırdı və onu çar İrakliyə qarşı qaldırırdı, fəqət orada da onu vadar edənlər var idi ki, onlar da qızışdırırdılar). Odur ki, çoxlu pis xəbərlərdən sonra Gürcüstanın üzərinə yerimək üçün hazırlığa başladı, əvvəlcə səfir göndərdi ki, Rusiyadan əl çəksin. Qoridən Tiflisə yeni gəlmişdi. Rusiya ilə eyni dinə mənsub və Rusiyanın qüdrətli olduğuna etibar etdiyindən səfirə soyuq cavab verdi və onu ümidsiz yola saldı, lakin dərhal müşahidəçiləri səfirin arxasınca saldırdı və özü də Ağa Məhəmməd şah Qacarı əməlli-başlı qarşılamaq üçün hazırlıqlara başladı. Bu iş üçün göndərilən müşahidəçilərdən xəbər gəldi: Ağa Məhəmməd şah Qacarın başqa işləri ortaya çıxdı, onları yerinə yetirməyincəyə qədər bura gəlmək niyyətində deyil. Bu xəbər onu çox məmnun etdi. Bunun üçün də daha ürəkdən hazırlaşırdı. Belə ki, xeyli vaxt keçdi və nəhayət, 1794-cü ildə, yay vaxtı yenə xəbər gəldi: İndi Ağa Məhəmməd şah Qacar şəksiz gəlmək niyyətindədir.

*(davamı növbəti sayda)*

*Gürcü dilindən tərcümə edən:*

**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 DEKABR
2024-CÜ İL
№ 21 (216)

Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# MARNEULİDƏ USTAD AŞIQ VƏ SAZBƏND BƏFALI ADIGÖZƏLOVUN YUBİLEYİ QEYD OLUNUB



Dekabrın 6-da tanınmış ustad aşıq və sazbənd Bəfalı Adıgözəlovun 65 illik yubileyi qeyd olunub.

Tədbirdə Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsinin layihələri çərçivəsində fəaliyyət göstərən mərkəz və icma rəhbərləri iştirak ediblər.

“Tea House”nin rəhbəri Emin Əhmədov B.Adıgözəlovun həyat və fəaliyyəti barədə ətraflı məlumat verdikdən sonra aşıq haqqında sənədli film nümayiş etdirilib.

Sonra professor Mahmud Kamaloğlu B.Adıgözəlovun həyat və fəaliyyətindən danışıb. Bildirib ki, 1959-cu ildə Bolnisi rayonunun Dəllər (Muşevan) kəndində anadan olan B.Adıgözəlov uşaq vaxtından aşıq sənətinə böyük maraq göstərib. İlk dərsini də dövrünün ustad aşıqlarından olan Aşıq Əlidən alıb. O təkcə saz deyil, həm də zurna-balabanda da gözəl ifa edir.

Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev ölkədə yaşayan aşıqların Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərindən bəhs edib. Diplomat Azərbaycan dövlətinin mədəniyyət xadimlərinə göstərdiyi qayğıdan da söz açıb, Aşıq Kamandarın ev-muzeyinin yaradıldığını vurğulayıb.

Qeyd olunub ki, aşıq və sazbəndlik sənətini inkişaf etdirdiyinə görə B.Adıgözəlovun xidmətləri diqqətdən kənarda qalmayıb. B.Adıgözəlov Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən “Diaspora fəaliyyətində xidmətlərinə görə” medalı ilə təltif edilib.

Marneuli şəhərinin meri Kənan Ömərov bildirib ki, məhz B.Adıgözəlov kimi ustadların xeyirxah əməlləri nəticəsində bu gün Azərbaycan mədəniyyəti, incəsənəti inkişaf edir.

Siyasi xadim Ruslan Hacıyev, Gürcüstan Azərbaycanlıları Konqresinin sədri Hüseyn Yusifov, şair Səadət Buta, tarixçi alim Ramiz Bəkirov və başqaları çıxış edərək aşıq və sazbənd B.Adıgözəlovun yaradıcılığından, sənət yolundan söz açıb, yazdığı şeirlərdən söyləyiblər.

Ustad aşıqlar və Marneuli Aşıqlar Məktəbinin şagirdləri tədbirdə B.Adıgözəlovun şeirlərinə bəstələnmiş mahnılar ifa ediblər.

# GÜRCÜSTANIN ABŞ-DƏKİ SƏFİRİ İSTEFA VERİB



Baş nazir İrakli Kobaxidze Gürcüstanın ABŞ-dəki səfiri, sabiq xarici işlər naziri David Zalkalianinin istefa verməsini təsdiqləyib. Bu barədə İrakli Kobaxidze keçirdiyi mətbuat konfransında bildirib.

O, səfirin istefasından təəssüfləndiyini, lakin seçiminə hörmətlə yanaşdığını qeyd edib.

İrakli Kobaxidze xarici işlər nazirinin müavini Teymuraz Cancalianın isə vəzifəsini tərk etmədiyini, bunun yeni XİN başçısı olan Maka Boçorişvilinin qəbul etdiyi kadr qərarı olduğunu qeyd edib.

Baş nazir qeyd edib ki, nazir müavininə sistemdə qalmaq təklifi edilib, lakin onun hansı qərar verəcəyi məlum deyil.

Qeyd edək ki, yerli KİV nazir müavini Teymuraz Cancalianın və David Zalkalianinin hakim partiyanın Aİ-yə prosesini dayandırmaq qərarına görə istefa verməsi barədə məlumat paylaşıb. Gürcüstan XİN-in 130-dək əməkdaşı sözügedən qərarı qınayan bəyanatı imzalayıb.

# GÜRCÜSTANDA YENİ NAZİRLİK YARADILIB



Gürcüstan hökumətinin tərkibində daha bir nazirlik fəaliyyət göstərəcək. Bununla bağlı Gürcüstan parlamenti üçüncü oxunuşda “Gürcüstan hökumətinin strukturunun, səlahiyyətlərinin və fəaliyyətinin qaydası haqqında” qanuna təklif olunan əlavə və dəyişiklikləri təsdiq edib.

Yeni qəbul edilən layihəyə əsasən, 2025-ci il yanvarın 1-dən icra hakimiyyətinə iki nazirlik – Mədəniyyət Nazirliyi və İdman Nazirliyi əlavə olunacaq.

Mədəniyyət Nazirliyi mədəniyyət siyasətinin həyata keçirilməsi ilə bağlı hazırkı Mədəniyyət və İdman Nazirliyinin hüquqi varisinə çevriləcək.

İdman Nazirliyi isə müvafiq sahələr üzrə səlahiyyətləri həyata keçirəcək.

Qanun layihəsi 87 səslə, yekdilliklə qəbul edilib.

# NÜMAYİŞLƏR ZAMANI ÜZÜ MASKA İLƏ ÖRTƏNLƏR CƏRİMƏLƏNƏCƏKLƏR



Gürcüstanda nümayişlər zamanı toplaşan şəxslərin üzlərini maska və ya digər vasitələrlə örtmələri qadağan edilib. Bu barədə Gürcüstan parlamenti müvafiq qərar layihəsini təsdiq edib.

Qadağan olunan əşyalar siyahısına pirotexnika, lazer və hər hansı güclü radiasiya yayan vasitələr də əlavə edilib. Bu vasitələrdən istifadə edən nümayiş iştirakçıları 2000 lari məbləğində cərimələnəcək. Qanunvericilik dəyişikliyi paketi yekdilliklə, üçüncü oxunuşda 83 səslə təsdiqlənib.

Nümayişlərdə iştirak edən və üzünü örtmək hüququ olan şəxslərin siyahısı Daxili İşlər Nazirliyi tərəfindən müəyyən ediləcək. Həmçinin Daxili İşlər Nazirliyi bu şəxslərə müvafiq icazə verilməsi üçün qaydaları və şərtləri müəyyən edəcək.

Eləcə də Gürcüstanda pirotexnika məhsullarının idxalı, ixracı, istehsalı və satışı xüsusi icazə/lisenziya əsasında həyata keçiriləcək.

# QANUNU POZAN AZYAŞLININ VALİDEYNİ CƏRİMƏLƏNƏCƏK



Azyaşlının hüquq-mühafizə orqanı əməkdaşının qanuni tələbinə tabe olmaması valideynin cərimələnməsi ilə nəticələnəcək. Bununla bağlı mövcud qanuna dəyişiklik edilib.

Dəyişikliyə əsasən, azyaşlının hüquq-mühafizə orqanı əməkdaşının qanuni tələbinə tabe olmaması zamanı valideyn və ya qanuni nümayəndəsi 100-300 lari məbləğində cərimə olunacaq.

Parlament qanunvericiliyə dəyişiklikləri iki oxunuşda qəbul edib. Dekabrın 13-də keçiriləcək iclasda sözügedən qanun üçüncü oxunuşda təsdiqlənib.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b.
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.